# "Bir ömürdü, o da keçdi beləcə..."

### *Qarabağın özü olan ustad şairim Ramiz Məmmədzadəyə isti bir oxucu məktubu*

**Əvvəlcədən deyim ki, ötən ilin noyabrında dəyərli ziyalımız, yazıçı-publisist, həm də çox böyük zövqlü və peşəkar nəşriyyat redaktoru Mustafa Çəmənli redaksiyaya zəng vurmuşdu. Həmişəki kimi hal-xoş etdik, bir-birimizlə olandan, keçəndən danışdıq və söz arası Mustafa müəllim onun elektron ünvanına bir şəkil göndərməmi istədi. Səbəbini soruşdum, dedi ki, bir dostumuzun kitabını hazırlayıram, orada sənin də yazın gedir. Əlavə bir söz deməsə də, anladım ki, bu istək həm kitab müəlifinin, həm də redaktorun içindən gəlir. Ona görə də həmişəkindən fərqli olaraq şəklimi elə anındaca göndərdim. Və...**

Dekabrın son günlərində ağsaqqal şairimiz, mənim üçün çox sanballı, qarabağlı, ədəbiyyatda, həyatda, cəmiyyətdə sözünü kəsərli şəkildə deyən, özü ilə sözü üst-üstə düşən dostum Ramiz Məmmədzadə həmişəki ərklə mənə zəng etmişdi. Mobil telefonumda adını xüsusi qeyd etdiyim nömrə sahibinin zəngi gələn kimi telefonu açıb "Bəli, Ramiz müəllim, eşidirəm" - dedim. O da həmişəki kimi ailədən, uşaqdan, ədəbiyyatdan və nəhayət "Ədalət" qəzetindən söz açıb, sorğu-sual edib və sonda da bir müjdə verdi mənə. Bildirdi ki, "Bizim Müstafa Çəmənlinin redaktorluğu ilə mənim təzə kitabım çıxıb. Orda sənin də sözün, yazın var. Nə vaxt orda olacaqsan, kitab payını göndərim sənə" - dedi. Mən Ramiz müəllimə ürəkdən gələn təşəkkürümü bildirib razılaşdım ki, şəhərdə olanda ona zəng edəcəm. Əlaqə saxlayarıq və Ramiz müəllimin oğlunun gətirəcəyi kitabı məmnunluqla qəbul edəcəm... Bax, beləcə, razılaşdıq... sağollaşdıq...



Nəhayət, 2022-ci ilin yanvar ayının 25-də Ramiz müəllimin səliqəli və səmimi "Sevgili Qarabağımızın sarı simi Mədətoğlu Əbülfət bəyə - müəllifdən. Ramiz Məmmədzadə. 25 yanvar, 2022-ci il" avtoqraflı kitabı artıq masamın üstündə idi. Kitabı görən kimi öncə onun tərtibatı, yəni redaktor işi, nəşriyyat işi məni əməlli-başlı kövrəltdi. Kitabın üz qabığındakı şəkil Ağdamlı günlərimizin (şükürlər ki, o günlərə qayıdış başlayıb - Ə.M.) danışan dili idi. Az-çox Qarabağı tanıyan hər bir kəs bu şəkli görən kimi söhbətin canında, qanında mütləq Ağdamın yer aldığını ruhən duyacaqdım. Axı hər birimiz məşhur çay evinin harda inşa edildiyini və o çay evinin içində, çölündə, hansı dəyərli insanların baş-başa qalıb həmsöhbət olub, fikir bölüşdüyünü, hətta bu gün lətifələrə çevrilən mövzuları qabartdığını az-çox bilirik. Ona görə də kitabın üstündəki müəllif imzası bir anlıq olduğu yerdən götürülsə, onda da mənim söylədiyim fikir yenə öz mahiyyətini qoruyub saxlayacaqdı.

Deməli, şəkilə baxa-baxa, Ağdamlı günləri düşünə-düşünə kitabı vərəqlədim. Təbii ki, bu kitabda yer almış yazıların, xüsusi ilə Ramiz müəllimin qələmindən çıxan fikirlərin böyük əksəriyyətini mən dövri mətbuatda oxumuşdum. Amma onları bir qom bənövşə kimi bir yerdə topa görməmişdim. Ona görə də kitabı vərəqləyib stolun bir kənarına qoydum. Düşündüm ki, bir azdan yenə qayıdaram Ramiz müəllimin sözünün qapısına. Çünki isti-isti qərar verməkdə çətinlik çəkirdim. Və belə də etdim. Qayıtdım yenə həmin qapıya. Bu dəfə qərarlı idim. Öncə kitabdakı "Şeirlər" fəslinə münasibətimi bildirəcəkdim. Mən bu şeirlərin hər biri haqqında bir oxucu olaraq söz demək imkanımı götür-qoy etdiyimdən birbaşa demək istəyirəm ki, bu şeirlərdə Ramiz Məmmədzadə ömrünün cizgiləri, Ramiz Məmmədzadə yaddaşının naxışları və Ramiz Məmmədzadə baxış bucağının ifadələri özünü çılpaqlığı ilə ortaya qoyub. Yəni, şeirləri oxuyanda həm müəlliflə söhbət edirsən, (daha çox da onu dinləyirsən - Ə.M.) həm Ağdamı gəzirsən, həm də o illərin nəfəsini, hənirini duyursan. Deməli, bu şeirlərdə Ramiz müəllimin bir rəssamlıq keyfiyyəti də ortaya çıxır. Bunu hardasa fotoqraflıqla da eyniləşdirmək olar. Həm də şeirlərin canında Ramiz müəllimin təkcə Qarabağa bağlılığı yox, həm də Qarabağın saytal kişilərinə, adamlarına diqqətini, məhəbbətini də özün üçün aşkarlayırsan. Bax, bu şeirlər məndə bir görmək, izləmək və bir də düşünmək assosasiyası yaradır. Məsələn, xalq artisti, muğam professoru Ramiz Quliyevin tarı ilə bağlı yazılan şeirdə:

***Barmaqlar şam kimi alışıb yandı,***
***Quşlar yerə endi,***
***çaylar dayandı,***
***Tarın gur səsindən cahan oyandı.***
***Tarı günəşlərə tanıtdı Ramiz.***

Buradakı mənzərə bir az təbiət hadisəsi kimi görünsə də, amma bu hadisənin içərisində tarın günəşə tanıdılması artıq Ramiz Məmmədzadə təqdimatıdı. Və yaxud:

***Hələ fələklərdən uzaq deyilsən,***
***Hələ yox xəbərin sabahlarından.***
***Bir qadın ruhunda ev qura bilsən,***
***Allah keçə bilər günahlarından...***

Şeirin bütün ovqatını bir kənara qoyub təkcə bu bənddəki poetik fikri özüm üçün çözməyə çalışıram və anlayıram ki, ruhda təkcə yer qazanmaq, yer əldə etmək yox, həm də ev qura bilmək nə qədər obrazlı bir deyimdi. Axı, ruhlar dolaşır, gəzir. Bax, o hər yeri dolaşıb gəzən ruhda ev qurmağın mahiyyətinə varmaq, ona nail olmaq və bunu da şeirə gətirmək təkcə söz xiridarı olmaqla bitmir, həm də elə o ruhun özünə sahib olmaq gücü deməkdir. Şükürlər ki, Ramiz müəllimin yaratmaq imkanı özünü yetərincə təsdiq etdiyindən şeirlərindəki özəlliklər və gözəlliklər bir-birini tamamlayır və süstləyir. Bu da bir oxucu kimi mənim həm könlümü şad edir, həm də poeziyadan ləzzət almaq fürsətini mənə yaşadır.

Kitabda toplanan şeirlərin doğum tarixləri müxtəlif olsa da, onların arasında bir gözlə görülməyən, amma şeirdən-şeirə keçdikcə səninlə yol-yoldaşlığı edən bir bağlılıq da var. Mənə görə o bağlılığın adı Qarabağdı, Ağdamdı. Yəni, oxucu olaraq o bağın işığına düşüb bu gün barəsində danışdığım yer alan şeirlərlə uzun bir yol getmək mümkündü. O yol adamı Qarabağda, təkcə kənd-kənd, məhlə-məhlə deyil, həm də ev-ev gəzdirir. Ağdamı, Şuşanı, ümumiyyətlə, Qarabağ bölgəsini bir kino lenti kimi keçirir göz önümdən. Sən şeirlərin havasında havalanırsan. Bu hava Qarabağ havasıdır. Onun sifarişçisi oxucudu. Amma o havanı oxucuya çatdıran şair Ramiz Məmmədzadə özü ilə birlikdə Ramiz Quliyevi, Rəmişi, Arif Babayevi, Mənsum İbrahimovu... daha kimləri gətirib havanın pərdələrinə... Deməli, ortada olan hava həm həsrətini çəkdiyimiz, həm də artıq sevincini yaşamağa başladığımız bir yurdun dünəni, bugünü və sabahıdı. Daha doğrusu, bu üç məqamın havasıdı. O havada mən Ramiz müəllimin səsini açıq-aydın eşidirəm.

***Bir bağım var çiçək-çiçək,***
***Qışı - qarlı,***
***yayı - külək.***
***Su torpağın olduğu tək***
***Mənim ola bilərsənmi?..***

**Bəli, Ramiz müəllim. Mən sizin şeirləriniz barəsində oxucu düşüncələrimin bir misqalını elə Qarabağ havası üstündə kağıza köçürtdüm. Bilmirəm, fikirlərimlə razı olacaqsınız, yoxsa yox. Amma əlimi ürəyimin üstünə qoyub deyirəm ki, Qarabağ sevginiz, Qarabağı güllərinə, çiçəklərinə bənzəyən fikirləriniz məni həm sevindirdi, həm də yaxşı mənada heyrətləndirdi. Və bir də bu hisslərin içərisində Qarabağın sizin olduğuna, sizin də Qarabağa aid olduğunuza heç bir şübhəm qalmadı!..**

**Əbülfət MƏDƏTOĞLU**

ədalət.- 2022.- 5 fevral.- S.6.